***İyirmi Yanvar bayatıları***

Bakımız güllələndi
Bəla göydənmi endi?
O şənbə gecəsində
Silahlar birdən dindi.

    Ana fəryadı, ahı
    Nəydi elin günahı?
    Qana qərq olan şəhər,
    Çox gözlədi sabahı.

Zülm ərşə dayandı,
Yer-göy oda qalandı.
Meydançalar, küçələr
Qızıl qana boyandı.

    Yaş axıdan göz oldu,
    Dərdimiz dəniz oldu.
    Bir gecənin içində
    Şəhidlər yüz-yüz oldu.

Necə dözək zillətə?
Zülm etdilər millətə.
Neçə-neçə başkəsən
Dolmuşdu məmləkətə.

    Bakı-Sumqayıt yolu
    Ağır tanklarla dolu.
    Allaha üz tuturdu
    Hamı başıalovlu.

Alimlər iş başında
Əzildilər maşında.
Bu cəlladlıq həkk oldu
Tarixin yaddaşında.

    Kimlərsə yatağında,
    Körpələr qundağında,
    Qatil vurdu bir qızı
    Güzgünün qabağında.

Belə soyqırım hanı?
Xəbər gəzdi dünyanı.
Lənətlədi Yer üzü
Əmri imzalayanı.

    Nişan, toy yasa döndü,
    Evlərdə çıraq söndü.
    Hər küçədə, döngədə
    Qaniçənlər göründü.

Primakov, Bakatin
Düşməni bu millətin.
Yad etdikcə o günü

Ümman olur nifrətim.
Güllələr uçdu göydə
Yanıb iz açdı göydə
Vətənin ağır dərdi
Şimşək tək saçdı göydə.
Neçə şənlik pozuldu,
Neçə arzu puç oldu.
İyirmi Yanvar günü
Yalnız oğul doğuldu.
Qəzəb-kin aşdı-daşdı,
Kədər eli dolaşdı.
Enerji blokunu
Əsgərlər partlatmışdı.
Ayrılmışdıq dünyadan,
Dərdli idik biz yaman.
Nalə çəkirdi onda
Qaboy ilə tar, kaman.
Dedik: çalsın qoy Ramiz,
Tarda dinsin dərdimiz.
Günahımız nə idi
Çəkdik ağır dərdi biz.
Yanvar faciəsinə,
Millətimin səsinə
Səs verdi Moskvadan
Heydər Əliyev yenə.
“Qorbaçovdur günahkar,
Cəlladlara olsun ar”.
Öndərin çıxışından
Xəbər tutdu insanlar.
Küçələrdə qərənfil,
Əlac dərdə qərənfil.
Cənazələr yüzlərlə
Heç yaddan çıxan deyil.
Qaboy yaman ağladı,
Sinələri dağladı.
Şəhidlərin kədəri
Ürəklərdə çağladı.
Neçə-neçə ər susdu,
Qorxmaz, hünərvər susdu.
Qoymadılar yaşasın,
Çox nər oğlu nər susdu.
Dünənki Dağüstü park,
Hamımızdan küsdü park.
Şəhidlərin yasından
Titrədi park, əsdi park.

Qırx gün yas saxladıq biz,
Ümman oldu dərdimiz.
Torpağa tapşırıldı,
Neçə-neçə mərdimiz.

Vəkil Ə. İyirmi yanvar bayatıları // Respublika. – 2009. – 20 yanvar.